24 dekabr 2015-ci il tarixində Yaponiya hökümətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Tsuquo Takahaşinin və Balakən rayon İcra Hakimiyyəti Başçısı cənab Rzayevin iştirakı ilə aşağıdakı layihə üzrə Açılış Mərasimi keçirilmişdir.

**Balakən rayonunda tullantıların idarə olunması sisteminin təkmilləşdirilməsi layihəsi**

Ətraf mühitə olan mənfi təsirləri azaltmaq və yaşayış şəraitini yaxşılaşdırmaq məqsədilə layihə üzrə Balakən şəhərində tullantıların idarə olunması mərkəzi tikilmişdir. Layihənin nəticəsi olaraq, Balakən şəhərində tullantıların azaldılması və səmərəli təkrar emal sistemi qurulmuşdur. Bu layihə üçün Yaponiya hökumətinin ayırdığı qrant yardımının ümumi məbləği 94,111 ABŞ dolları təşkil edir.

**Səfirin Azərbaycan dilində çıxışı**




**Mərasim iştirakçıları**




**Lent kəsmə mərasimi**




**Tullantıların idarə olunması mərkəzi**

